**UOT 332.122**

# REGİONAL İSTEHSAL İNFRASTRUKTURUNUN İNVESTİSİYA PROBLEMLƏRİ

**Rauf Rəhim oğlu Əliyev***
iqtisadiyyat üzrə fəlsəfə doktoru

**Xülasə**

Azərbaycanın regionlarında dayanaqlı sosial-iqtisadi inkişafı təmin edən istehsal infrastrukturunun yaradılması və onun təkmilliyinin artırılmasının investisiya problemlərinin təhlili tədqiqat obyektinin predmetini təşkil edir. Daha geniş çərçivədə məqalədə investisiya qoyuluşlarının institusional mühit problemləri, onun vergiqoyma ilə bağlı məsələləri, regional inkişafın stimullaşdırılmasında dövlət investisiya fondlarının rolu və əhəmiyyəti məsələləri təhlil olunmuşdur. Məqalədə həmçinin regional istehsal infrastrukturunun sistemi mükəmməlliyinə və inkişafının investisiya təminatlığına təsir edən amillər müəyyən olunmuş və bu sferada daha əlverişli şəraitin formalaşdırması yolları göstərilmişdir. Bununla belə, regional avtonomiyanın genişləndirilməsi və istehsal infrastrukturunu təkmilləşdirilməsi istiqamətində yerli resurslara əsaslanan, xarici bazarlara çıxışı olan rəqabətqabiliyyətli yeni istehsal strukturlarının qurulması da tövsiyə edilmişdir.

**Açar sözlər:** *Azərbaycan iqtisadiyyatı, regional iqtisadiyyat, istehsal infrastrukturu, vergiqoyma, investisiya*

## Giriş

Azərbaycanda regional iqtisadi inkişafı hərtərəfli təmin etmək üçün dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə regional sosial-iqtisadi inkişafı təmin edən dövlət proqramları həyata keçirilir. İlk belə regional inkişaf proqramı beş il bundan əvvəl, 2004-cü ildə qəbul olunmuş və uğurla reallaşdırılmışdır.

Təkcə bir neçə statistik rəqəmin ifadəsi ilə proqramın nə dərəcədə böyük əhəmiyyəti olduğunu səciyyələndirmək olar. Belə ki, son beş ildə Azərbaycan iqtisadiyyatı 2,6 dəfə artmış, adambaşına düşən gəlir 5500 ABŞ dollarına çatmışdır. Bunun nəticəsində 766 min yeni iş yeri açılmış, yoxsulluğun səviyyəsi kəskin şəkildə azalaraq 49%-dən 13,2%-ə düşmüşdür [1, 2]. Hazırda Prezidentin 14 aprel 2009-cu il tarixli fərmanı ilə qəbul olunmuş yeni, «Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın icrasına başlanılmışdır. Bu proqram regionlarda əmək ehtiyatlarından, təbii və iqtisadi potensialdan səmərəli istifadə edilməsi əsasında qeyri-neft sektorunun inkişafının sürətləndirməsini, aqrar islahatların

*Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi. AZ1000. Bakı şəhəri, Ü.Hacıbəyov küçəsi, 40.
r.r.aliyev@mail.ru



PDF processed with CutePDF evaluation edition www.CutePDF.com

dərinləşdirilməsini, əlverişli investisiya şəraitinin yaradılmasını və bununla da regional infrastrukturun yeniləşdirilməsi isti-qamətində sistemli tədbirlərin həyata keçirilməsini nəzərdə tutur [3]. Proqramın reallaşması nəticəsində məşqulluq təminatı daha da yaxşılaşmış çoxsaylı yeni iş yerləri açılmışdır. Ümumiyyətlə 2003-cü ildən indiyədək Azərbaycanda 900 minə yaxın iş yeri açılmışdır. Bu proseslərin daha səmərəli və davamlı edilməsi məqsədi ilə regionlara investisiya axını gücləndirilməlidir. Bütün bu görülən işlər yüksək dəyərləndirilir və Azərbaycanın iqtisadi modelinin ölkənin iqtisadi həyatının daha da inkişaf etdirilməsindəki rolu və əhəmiyyəti vurğulanır.

Regional iqtisadiyyatın nəzəri və təcrübi gerçəklikləri regional inkişafın sonrakı mərhələlərində onun daha çox daxili resurslar hesabına irəliləyişini təşfiq edir. Buna görə də gələcəkdə regional iqtisadi inkişafın hərtərəfli təminatı üçün yalnız mərkəzi transfertlərdən deyil, eyni zamanda daha çox lokal resurslardan qaynaqlanan investisiya mənbələrindən də istifadə edilməlidir. Bunun üçün, ilk növbədə yerli ehtiyatlar və iqtisadi potensialdan maksimum səmərəli istifadə əsasında xarici bazarlara belə çıxışı olan, rəqabətqabiliyyətli regional istehsal infrastrukturunun təkmilləşdirilməsinə nail olunmalıdır. Bu problem isə yalnız institusional mahiyyətli, maliyyə-iqtisadi və vergi təyinatlı deyil, həm də geniş mənada elmi aktuallıq kəsb edən bir məsələdir. Bundan irəli gələrək, Azərbaycanın regionlarında dayanaqlı sosial-iqtisadi inkişafın daha səmərəliliklə davamlı təmin edilməsi, rəqabətqabiliyyətli regional istehsal infrastrukturunun təkmilliyinin artırılmasının investisiya problemlərinin təhlili və bundan irəli gələn müvafiq əlverişli vergi mühitinin yaradılması, biznes işinin yaxşılaşdırılması bizim də tədqiqat mövzumuzun predmetinə çevrilmişdir.

**İnvestisiyalar və institusional mühit problemləri**

Dövlət investisiya xərclərində regionlardakı layihələrin həyata keçirilməsinə ayrılan vəsaitin məbləği 2004-cü illə müqayisədə 2008-ci ildə 6 dəfə artaraq 3,9 milyard manat təşkil etmişdir. Bu isə ümumi investisiyaların 83%-nə bərabərdir. Ümumilikdə, son beş il ərzində regionlara 6,8 milyard manat həcmində dövlət investisiyaları qoyulmuşdur. İnvestisiya qoyuluşları 2009-2010-cu illərdə də artmışdır Ötən ildə də investisiya siyasətinin əsas prioritet istiqamətləri infrastrukturun inkişafı, investisiyanın qeyri-neft sektorunun və regionların inkişafına yönəl-dilməsinin stimullaşdırılması, regionlar arasında investisiyaların bölgüsünün optimallaşdırılması, ölkədə investisiya fəaliyyətinin sosial istiqamətinin gücləndirilməsi təşkil etmişdir. 2009-cu ildə iqtisadiyyatın və sosial sahələrin inkişafına bütün maliyyə mənbələri hesabına 7,4 mlrd. manat əsas kapitala investisiya yönəldilmişdir. Bu vəsaitin 27%-i neft sektorunun, 73%-i isə qeyri-neft sektorunun inkişafına yönəldilmişdir. Əsas kapitala yatırılmış vəsaitin 79,9%-ni daxili investisiyalar, 20,1%-ni isə xarici investisiyalar təşkil etmişdir. Bütün bunlar bir daha onu göstərir ki, respublikamızda uğurlu investisiya siyasəti aparılır [4].

Görülən bu işlərin miqyası və əhəmiyyətini bir daha vurğulayaraq, həm də qeyd olunmalıdır ki, regionlara özəl biznesin investisiyalarını artırmaq, yerli istehsal infrastrukturunun yaxşılaşdırmaq üçün hələ də qarşıda bir sıra vəzifələr durur. Bunun üçün ilk növbədə sahibkarlara verilən iqtisadi imkanları daha da yüksəltmək lazımdır.

Təcrübi baxımdan belə reallıq vardır ki, istehsal infrastrukturuna istiqamətləndirilən kapital qoyuluşları bütövlükdə real sektora yönələn investisiyalardan spesifikliyi ilə

fərqlənirlər. Bu spesifiklik onunla izah edilir ki, istehsal infrastrukturu daha çox kapital qoyuluşları tələblidir və burada investisiyaların qaytarılması müddəti də xeyli çoxdur. Belə xüsusiyyət isə iqtisadi tənəzüllər mərhələsində istehsal infrastrukturu təsərrüfat subyektlərinin investisiya cəlbediciliyində təsiredici rol oynayır. İstehsal infrastrukturunun bu spesifikliyi haqqında təcrübi reallıqları bir çox iqtisadi nəzəriyyə müəllifləri də bölüşürlər. Onlar vəziyyətdən çıxış yolunu bu sahənin maliyyələşdirilməsi istiqamətində büdcədən kənar fondların yaradılmasında, innovasiya fəaliyyətini həyata keçirən müəssisələrdə layihə gücünə çatma müddətində bir sıra vergi güzəştlərinin tətbiq olunmasında görürlər. Bu fondların isə maliyyə mənbəyini kimi milli sahibkar və xarici kapitalı göstərirlər [5, 6].

Respublikanın regionlarında istehsal mühiti daha çox aqrar sektorla bağlıdır və analoji olaraq regional istehsal infrastrukturunun inkişafı da aqrar sektordakı vəziyyətlə üzvi surətdə əlaqəlidir. Ona görə də, aqrar sektorda irəliləyişə nail olmaq üçün ilk növbədə investisiya prosesinin, onun repatriasiyasının möhkəmlənməsini stimullaşdırmaq, kənd təsərrüfatı məhsullarının geniş satış bazarını müəyyən etmək lazımdır. Bununla belə, yetərli investisiya təminatı olduğu şəraitdə, maliyyə öhdəliklərinin yerinə yetirilməsi üçün hər bir istehsalçı fəaliyyətə başlama ərəfəsində hansı kənd təsərrüfatı məhsulunu istehsal edəcəyi və onu harada və neçəyə satacağı barədə real təsəvvürə malik olmalı, təsərrüfatlarda elmin və qabaqcıl təcrübənin nailiyyətlərindən geniş istifadə edilməlidir.

İstehsal infrastrukturunun inkişafın təmin edilməsində yerli idarəetmə orqanlarının fəaliyyəti mühüm əhəmiyyət kəsb edir. Belə ki, yerli idarəetmə orqanları ilk növbədə sahibkarlar və ailə təsərrüfatları üçün daha əlverişli şəraitin yaxşılaşdırılmasına, onların tələbatlarının daha dolğun ödənilməsinə yardım etməlidirlər. Beynəlxalq təcrübə göstərir ki, bazar münasibətləri ilə yerli idarəetmə orqanlarının fəaliyyəti arasında ciddi qarşılıqlı əlaqələr vardır. Bələdiyyə idarəçiliyi bazar münasibətlərinin genişlənməsinə, daha faydalı, daha perspektivli olmasına rəvac verir. Bu işi daha da vüsətləndirmək üçün regionda bələdiyyə institutunun fəliyyətinin də aktivləşdirməsi vacib hesab olunur.

Regional istehsal infrastrukturunun investisiyalar baxımından iqtisadi və institusional problemləri sırasında bir sıra intellektual bazar seqmentlərinin müəyyən regionlarda genişliklə təşkil edilməməsi, konsaltinq, injiniriq kimi xidmətlərin daha çox mərkəzdən alınması durur. Bu isə onu göstərir ki, regionlarda bazar strukturu tam dolğun spektrdə formalaşdırılması üçün görüləsi işlər vardır. Göründüyü kimi, burada investisiya problemi ilə yanaşı, institusional əlverişlilik mühiti və normativ-hüquqi baza, vergiqoyma məsələri də az əhəmiyyət daşamır. Qeyd edilməlidir ki, respublikamızda investisiya qoyuluşları haqqında geniş bir qanunvericilik şəbəkəsi formalaşmışdır. «İnvestisiyaların qorunması haqqında», «İnvestisiya fondları haqqında» qanunlar və digər müvafiq normativ-hüquqi aktlar burada fəaliyyətin nizamlanmasında mühüm əhəmiyyətlidir [7]. Lakin bütün bunlar qloballaşma prosesindən qaynaqlanaraq, daim təkmilləşməli və reallıqlarla adekvatlıq təşkil etməlidir. Ona görə də, bu istiqamətdə biznes şəraitinin genişləndirilməsi üçün mühüm olaraq, həm də institusional mühitin yaxşılaşdırılması, bank, kredit, maliyyə-vergi sisteminin daha da təkmilləşdirilməsi ehtiyaclıdır.

**Regional inkişafın stimullaşdırılmasında dövlət investisiya fondlarının rolu**

Regional inkişafın stimullaşdırılmasında dövlət investisiya fondlarının rolu və əhəmiyyəti yüksək qiymətləndirilməlidir. Hazırda

respublikada investisiya fəaliyyətini həyata keçirən və sahibkarlığa dəstək olan bir sıra təsisatlar mövcuddur. Bu təsisatlar içərisində Azərbaycan Respublikasının Dövlət Neft Fondu (ARDNF) özünün kapital tutumu ilə ön sıra da mövqe tutur [8].

Regional investisiya strategiyasında Azərbaycan İnvestisiya Şirkəti və Sahibkarlığa Kömək Milli Fondu (SKMF) da əhəmiyyəti ilə fərqlənir. Azərbaycan Dövlət İnvestisiya Şirkəti (ADİŞ) dövlət tərəfindən yaradılıb və bu şirkət ölkədə qeyri-neft sahələrində fəaliyyət göstərən kommersiya təşkilatlarına müddətli sərmayələr qoymaqla Azərbaycanda iqtisadiyyatın bu sahəsinin inkişafına nail olmaq məqsədini daşıyır. Dövlətə məxsus olan bu şirkətin nizamnamə kapitalı ilk yaranışda 90 milyon manat həcmində müəyyən edilmişdir. Sonradan bu həcm daha da artırılmışdır. Perspektivdə şirkət ölkə iqtisadiyyatına tam bir milyard dollara qədər vəsaitin cəlb edilməsinə yardım edəcək. Bu yolla dövlət respublikada ölkədaxili kapital bazarının inkişafını sürətləndirməyi qarşıya məqsəd qoymuşdur. Sahibkarlar ADİS-ə biznes-plan və digər lazımi sənədlər təqdim etməklə, dövlətin onun şirkətinə sərmayə qoyacağına ümid edə bilərlər. Şirkət tərəfindən sərmayələrin, investisiya obyektinin birbaşa nizamnamə kapitalına iştirak payı kimi və ya onun sərmayələrinin bir hissəsinin alınması şəklində müəyyən zaman müddətinə qoyulması nəzərdə tutulur. Bununla ADİS sərmayə qoyacağı obyektin tam hüquqlu payçısı olaraq, zərər və mənfəəti də həmin obyektin sahibi ilə, kommersiya risklərini də həmin layihələrin müəlliflərilə bölüşəcəkdir. Müqavilədə nəzərdə tutulan müddətdən sonra ADİS investisiya obyektindəki payını və ya səhmləri sataraq, həmin vəsaitləri yeni istifadə üçün hazır edəcəkdir.

Azərbaycan İnvestisiya Şirkəti fəaliyyəti dövründə qeyri-neft sektoruna, başlıca olaraq regionlarda sosial-iqtisadi inkişafa 100 milyon manata yaxın investisiya qoyuluşu həyata keçirmiş və yüz milyonlarla manat məbləğində əlavə investisiyanın cəlb edilməsinə nail olunmuşdur. Şirkətin qeyri-neft sektorunun inkişafı və investorların layihələrə cəlb edilməsi sahəsində fəaliyyəti daha da təkmilləşdiriləcək və bu istiqamətdə görülən işlərin effektivliyi artırılacaqdır [9].

Regionların, ümumiyyətlə bütövlükdə ölkə iqtisadiyyatının inkişafı ilə bağlı sahibkarlara güzəştli kreditlərin verilməsində SKMF-nin mühüm rol oynayır. Hazırda SKMF-nin kredit portfeli 500 milyon ABŞ dollarından çoxdur. Burada kreditlər sənaye, kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, ailə təsərrüfatlarının, turizm infrastrukturunun, xidmət və kütləvi informasiya vasitələrinin inkişafı layihələrinin maliyyələşdirilməsinə xərclənir. Maliyyələşdirilmiş layihələrin 80%-ə yaxını regionların payına düşür və 90%-ə yaxın hissəsi istehsal və emal yönümlüdür ki, bu da həmin regionlarda istehsal infrastrukturunun genişləndirilməsi və yenidən qurulmasıda əhəmiyyətli rol oynamışdır [9].

Azərbaycanda investisiyalarla bağlı məsələlərlə həmçinin Avropa İttifaqının bilavasitə iştirakı ilə yaranmış İxracın və İnvestisiyaların Təşviqi Fondu (İİTF) məşğuldur. İİTF adından göründüyü kimi bir təşviqi təşkilatdır. O, fəaliyyətində ADİS ilə əmakdaşlıq edir. Regional inkişaf sferasında aparılan dövlət siyasətinin ən mühüm istiqamətlərindən biri də Azərbaycanın dünya iqtisadi sisteminə inteqrasiyasının sürətləndirilməsi, ticarət əlaqələrinin genişləndirilməsi sahəsində görülən genişmiqyaslı tədbirlərdir. Bu gün Azərbaycan Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, İslam İnkişaf Bankı kimi beynəlxalq maliyyə institutları ilə əməkdaşlıq edir. Gələcəkdə də beynəlxalq maliyyə institutları ilə əlaqələr keyfiyyətcə daha yüksək

səviyyəyə qaldırılacaq, onların imkanlarının ölkəmizin və onun regionlarının sosial-iqtisadi problemlərinin həllinə yönəldilməsi üçün ciddi işlər görüləcəkdir.

Regionlarda istehsal infrastrukturunun inkişaf etdirilməsində milli fondlar, qeyri-hökumət təşkilatların da rolu qiymətləndirilməlidir. Bu təsisatlar regionlarında istehsal infrastruktur sistem mükəmməlliyinin təminatına qismən iştirak edirlər. Lakin böyük dəyişiklikləri yaratmaq üçün bu qurumlar kifayət qədər resurslara malik deyillər.

Regionlarda istehsal infrastrukturunun inkişaf etdirilməsində, yaranmış ümümi iqtisadi problemlərin həllində bilavasitə sanballı köməyi ümümmili lider Heydər Əliyev adına fondun rolu xüsusi dəyərləndirməlidir. Daha çox sosial infrastrukturun modernizasiyasına yönəlmiş fond fəaliyyəti ilə bilavasitə istehsal infrastrukturunun da inkişafına yardım edir. Heydər Əliyev Fondunun təhsil, səhiyyə, mədəniyyət, idman və digər sahələrin inkişafına göstərdiyi dəstək proqramın icrasına önəmli töhfəsini vermişdir. Təkcə «Yeniləşən Azərbaycana yeni məktəb» layihəsi çərçivəsində ən müasir avadanlıqla, informasiya texnologiyaları ilə təmin olunmuş yüzlərlə məktəb inşa edilmiş və ya yenidən qurulmuşdur [10].

Regional inkişafın təmin edilməsində, yerli istehsal infrastrukturunun mobilliyinin artırılmasında büdcədənkənar və digər maliyyə təyinatlı fondlarının da təsis edilməsi zəruri sayılır. Belə fondlar irili-xırdalı olmaqla demək olar ki, bütün regionlarda fəaliyyət göstərirlər. Onların da kapital tutumunun artırılmasına ehtiyac vardır. Bunun üçün həmin fondların idarə edilməsinə yerli sahibkarların cəlb edilməsi vacib sayılır. Belə olan təqdirdə regional istehsal infrastrukturu çoxtərəfli maliyyə qaynaqları əldə etmiş olur. Ona görə də, regional inkişafa yönələn tədbirləri yalnız büdcə transfertləri deyil, həm də beynəlxalq inteqrasiyadan qaynaqlanmalı, miqyaslı olaraq da yerlərdə təsis olunmuş fondlar vasitəsi ilə həyata keçirilməlidir.

**Regional istehsal infrastrukturunun əkmilliyinin artırılması**

İstehsal infrastrukturunun regional səviyyədə təkmilliyinin artırılması mühüm olaraq kiçik və orta sahibkarlığın inkişafı ilə sıx əlaqədardır. Burada fəaliyyət heç də mərkəzi direktivlərə və transfertlərə əsaslanmalıdır. Yerli məhsul və xidmətlərin minimal xərclərə istehsalı üçün bazar strukturunun əlverişliliyi artırılmalı və rəqabət mühiti daim təkmilləşdirilməlidir. Bu istiqamətdə dövlətlə yanaşı, yerli orqanlar sahibkarlıq fəaliyyətini sürətləndirən normativ-hüquqi bazanın təkmilləşdirilməsində, yerli kadr potensialının hazırlanması və yenidən hazırlığı istiqamətində konkret tədbirlər hazırlamalı, mövcud regional istehsal infrastrukturunu iqtisadi problemlərinin həllində yaxından iştirak etməlidirlər. Sahibkarların şəxsiyyət kimi formalaşması, dövlət və cəmiyyət qarşısında mənəvi məsuliyyət hiss etməsi naminə respublika da görülən işlər də xüsusi vurğulanmalıdır. Sahibkarlığın süni maneələrin aradan qaldırılması bir sıra tədbirlər həyata keçirilir. Bu istiqamətindəki fəaliyyətinin ardıcıl və davamlı səciyyə daşıdığını Prezident İlham Əliyevin 30 aprel 2007-ci il tarixdə imzaladığı «Azərbaycan Respublikasında sahibkarlığın inkişafı ilə bağlı bəzi tədbirlər haqqında» fərmanı bir daha təsdiqləyir. Bu fərmanla indiyə qədər çoxpilləli biznesə başlamaq sahəsində süründürməçilik hallarının, bürokratik əngəllərin aradan qaldırılması nəzərdə tutulmuşdur. Bu məqsədlə fərmanda vahid kodlaşdırmanın aparılması, biznes strukturlarının «bir pəncərə» - vahid qeydiyyat orqanı tərəfindən qeydə alınması məsələləri əksini tapmışdır. Bunun nəticəsində qeydiyyatdan keçmiş hüquqi şəxslərin sayı 30% artmışdır. Fərman, həmçinin

biznes strukturlarının fəaliyyəti üçün torpaq ayırmaları, tikinti, yenidənqurma və bərpa işlərinə icazə verilməsi prosedurlarının sadələşdirilməsi, tikintinin ekspertizadan keçirilməsi sahəsindəki bürokratik əngəllərin aradan qaldırılmasına geniş imkanlar açır [11].

Səmərəli istehsal infrastrukturunun formalaşdırılması bələdiyyələri üçün güclü fəaliyyət aləti rolunda çıxış edərək sosial infrastrukturun da inkişafına təkan vermiş olar. Elə buna görə də, bütün potensialından rasional istifadə edilməli, resurslar daha optimallıqla səfərbər olunmalıdır. Daha yüksək nailiyyətlər əldə etmək üçün isə, elmi tərəqqinin məhsullarından tətbiqi genişləndirilməlidir. Yerli potensialdan daha səmərəli istifadə edilməsi, effektli əmək bazarının təşkili, sahibkarlara konsultativ xidmətlərin göstərilməsi, elmi-empirik informasiya ilə təminatın gücləndirilməsi də vacib iqtisadi-inzibati tədbirlərdəndir.

Statistik tədqiqatlar göstərir ki, respublikanın regionlarında istehsal infrastrukturunun inkişafında əsas iki struktur - sənaye və kənd təsərrüfatı iştirak edir. Buraya ev təsərrüfatlarında sənaye və kənd təsərrüfatlı məhsul istehsalını da əlavə etmək olar. Əlbəttə, istehsal infrastrukturu həm də xidmət təyinatlı olduğundan bu sferada xidmət sektorunun da əhəmiyyətini azaltmaq olmaz. Lakin reallıq belədir ki, regional istehsal infrastrukturunun inkişafını, onun mobilləşməsinin sənaye və kənd təsərrüfatında baş verən irəliləyişlər qaynaqlandırır. Bununla belə, bu iqtisadiyyat sahələrinin hər bir regionda özünəməxsus yeri və sanbalı var. Hansı regionda bu iki sektor eyniliklə güclü inkişaf etmişdirsə, orada istehsal infrastrukturu daha mükəmməl quruluşa malikdir. Belə potensial həm də müvafiq regionlarda istehsal infrastrukturunun özünün inkişafına təsir göstərir [12, 13].

Siyasi və institusional amillər iqtisadi sistemin mühitini təyin edir. Bu reallıqdan irəli gələrək, dövlətlər regional inkişaf üçün müəyyən olunmuş strategiyada dövlət sifarişlərini genişləndirən, müəssisələrin konversiyasını reallaşdıran tədbirlər sistemi işləyib hazırlayırlar. Hətta hərbi-sənaye kompleksi məhsulları istehsalını bölgələrə keçirirlər. Anoloji strategiya respublikamızda da reallaşdırılır. Şirvan şəhərində müdafiə sənayesi məhsulları istehsal edən müəssisələrin tikintisi buna misaldır. Regional inkişaf sferasında bu çox mühüm və əlverişli yanaşma prinsipidir. Dövlətin büdcədən maliyyələşən strateji müəssisələrinin bölgələrdə paylaşma miqyaslılığından asılı olaraq regional istehsal infrastrukturu da inkişaf edəcəkdir [11].

Regionlarda yeni istehsal sahələrini yerləşdirilməsi, kiçik və orta biznesin inkişaf etdirilməsinin imkanları da geniş çeşidlidir. Məhz kiçik və orta biznes müəssisələri yerli resurslara istinad edərək regional inkişafın əsasında dayanır. Onların hərəkət şəraiti isə davamlı iqtisadi artıma və dayanıqlı regional tərəqqiyə təminatçı olur. Müasir zamanda kiçik biznesin əsaslı qərarlaşmasında yeni institusional sistemlərdən və iqtisadi mexanizmlərdən geniş istifadə edilməkdədir. Bu sırada fəaliyyət başlanğıcında çətinliklər çəkən kiçik sahibkarlığa ilkin dəstək olaraq icarə əsasında kommunikasiya vasitələri, kompyuter, ofis texnikası, inventarlar, iş və istehsal otaqları ayıran biznes inkubatorları regional aspektdə institusional infrastrukturun əlverişli inkişafını, industriyanın qabaqcıl sahələrinin formalaşdırılmasını, yerli elmi-texniki və istehsal potensialının yüksəldilməsini təmin edən texnoparkların yaradılması və genişləndirilməsi daha çox iqtisadi effektlidir [12, 14].

Sahibkarlar, alim və ixtiraçılar öz ideyaları əsasında kommersiya fəaliyyətini gerçəkləşdirmək istədikdə biznes inkubatorları onlara lazımi informasiya, inciriq və konsal-tinq xidməti göstərirlər. Bir qayda olaraq biznes inkubatorları bazarda potensial tələbli, məlum

texniki həllini tapmış, müasir texnoloji proseslər və «nou-xau»lar əsasında qurulan yeni, təkmil məmulatlar istehsalı və xidmətlər qoyuluşunu əhatə edir. Onların xidmətindən innovasiya ideyalarına əsaslanan kommersiya layihələrinin ilkin və riskli mərhələsində, təcrübi və seriyalı istehsal tsiklinin təşkilində istifadə olunur [12].

Regional sosial-iqtisadi inkişafda biznes inkubatorları və texnoparkların təsisatlandırılması və genişləndirilməsi ilə yanaşı müvafiq iqtisadi-inzibati areallar üzrə Azad İqtisadi Zonaların da yaradılması iqtisadi əhəmiyyətlidir. Burada offşorluğun turizm mərkəzi, azad sahibkarlıq, istehsal və azad bank kimi əlahiddə komponentləri seçimə təqdim edilir. Belə perspektiv imkan verir ki, regionlarda mövcud istehsal infrastrukturunun təkmilləşdirilməsində spesifik təyinatlı istehsal sahələri və obyektləri geniş intişar tapsın.

Regional inkişaf strategiyasında ümumi olan sosial həyatın, əhali və əmək resurslarının, elm və təhsilin, səhiyyənin, mədəniyyətin, ətraf mühitin və yerləşmə sisteminin inkişafına yardımçı olan region-sosium formasının tətbiqi daha faydalılıq gətirəcəkdir. Bu model əsasında regional inkişafının dayanıqlılığını təmin etmək üçün həm daxili və həm də xarici olan iqtisadi qaynaq elementləri yetərlidir. Sosial-iqtisadi situasiyanın hərtərəfli təhlili imkan verir ki, regionlarda mövcud başlıca problemlər identifikasiya olunsun. İnkişafı məhdudlaşdıran amillər müəyyən edilsin. Bütün bunlarla yanaşı regionların tam dayanıqlı avtonom fəaliyyətini əks etdirən müqabil təhlükəsizlik şəbəkəsi yaradılmalıdır.

Azərbaycanın regionlarında istehsal infrastruktur sistemi mükəmməlliyinin təminatının investisiya problemlərini tədqiq edərkən ölkədə bazar təsisatlarının genişləndirilməsi, bazarın seqmetləşməsini, müvafiq sahələrdə antiinhisarçılıq tədbirlərinin görülməsi, əlverişli rəqabət mühitinin yaradılması, mümkün olduqca refional təsərrüfatlara daha çox vergi güzəştlərinin verilməsi də diqqətdən yayınmamalıdır.

Araşdırmalarla müəyyən olunmuşdur ki, respublika regionlarında istehsal infrastrukturunun inkişafında bazarın seqmetləşməsinin rolu böyükdür. Prosesə isə təsərrüfat subyektlərinin rəqabətqabiliyyətliliyinin yetərli olmaması və qismən mövcud inhisarçılıq meylidir. Buna görə də, regionlarda istehsal infrastrukturunun inkişafına nail olmaq üçün dövlət tənzimləyici tədbirlər sistemində bu mühüm bazar elementlərinin rolunu nəzərə almalıdır.

**Nəticələr**

Aparılan təhlil bir daha onu göstərir ki, Azərbaycanın regionlarında istehsal infrastruktur sistemi mükəmməlliyinin və inkişafının davamlı təminatı investisiya qoyuluşları ilə bağlı olsa da, bu sferada hüquqi-normativ baza təkmiləşdirilməli və rəqabətqabiliyyətliliyi artıran institusional mühit formalaşdırılmalıdır. Aqrar sektorda dövlət investisiyaları strategiyasını, genişliklə kapital qoyuluşları strategiyası əvəz etməlidir. Prosesə üstün olaraq sahibkar kapitalı cəlb edilməli və bu istiqamətdə bələdiyyə resurlarından da səmərəliliklə istifadə edilməlidir. Hədəf isə kənd təsərrüfatı məhsulunun yetişdirilməsindən tutmuş, onun istehlak olunmasınadək bütün prosesləri ehtiva edən şaquli inteqrasiyalı cəhmdar cəmiyyətlərin yaradılması olmalıdır.

Bununla belə, davamlı inkişafın hərtərəfli təmin edilməsi, regional fəaliyyət avtonomiyasının genişləndirilməsi üçün də yerli resurslara əsaslanan, xarici bazarlara çıxışı olan istehsal sahələrinin də qurulması vacibdir. Buna görə də regionlarda daxili resursların daha rasional istifadəsi istiqamətində istehsal infrastrukturunu təkmilləşdirilməsi üçün yerli idarəetmə orqanları kompleks tədbirlər planı işləyib hazırlamalı və onun ardıcılıqla yerinə yetrilməsinə nail olmalıdırlar.

**Ədəbiyyat siyahısı**

1. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafi Dövlət Proqramı *(2004-2008-ci illər)*. Bakı. «Nurlar», 2004, 160 s.
2. http://www.azstat.org.
3. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafi Dövlət Proqramı *(2009-2013-cü illər)*. Bakı. «Nurlar», 2009, 173 s.
4. www.azstat.org.
5. Хей Ф., Моррис Д. Теория организации промышленности, В двух томах СПб: «Экономическая школа», 1999.
6. Носова С.С. Производственная инфраструктура в системе государственно-монополистического капитализма, М. Высшая Школа, 1983, 127 с.
7. www.e-qanun.az.
8. www.oilfund.az.
9. www.eco.gov.az.
10. www.heydar-aliyev-foundation.org.
11. www.president.az.
12. Кузнецова А.И. Инфраструктура. Вопросы теории, методологии и прикладные аспекты современного инфраструктурного обустройства. Геоэкономический подход. М. Высшая школа, 2006. 456 с.
13. Уильямсон О. Природа фирмы, М.: Дело, 2001, 360 с.
14. Региональная экономика в информационном измерении: модели, оценки, прогнозы. *(Сборник научных трудов)* Москва-Барнаул: «Бизнес-юнитек», 2003, 358 с.

**Алиев Рауф Рагим оглы,**
доктор философии по экономике,
Министерство Экономического Развития Азербайджанской Республики

## Инвестиционные проблемы производственной инфраструктуры

**Аннотация**

Анализ проблем инвестиции на создание соответствующей производственной инфраструктуры, обеспечение устойчивого социально-экономического развития регионов Азербайджана и повышение его совершенствования превратилось предмет данной исследовательской темы. В статье более широких рамках анализированы вопросы проблем институциональной среды инвестиционных вложений, вопросы налогообложений, роль и значимость государственных инвестиционных фондах в стимулировании регионального развитие. Определены факторы, влияющие на усовершенствование системы региональной производственной инфраструктуры и инвестиционного обеспечения его развития, указаны пути формирования в этой сфере условий более благоприятной среды. Вместе тем предложено, направление в расширении региональной автономии и усовершенствование производственной инфраструктуры, основанной на местных ресурсах и имеющих выходы на внешние рынки, создание новых конкурентоспособных производственных структур.

**Ключевые слова:** *Экономика Азербайджана, региональная экономика, производственная инфраструктура, налогообложения, инвестиции.*

Məqalə redaksiyaya daxil olmuşdur: 02.09.10.
Təkrar işləməyə göndərilmişdir: 24.09.10.
Çapa qəbul olunmuşdur: 21.10.10.